# Dilbər Xəlilzadə



*Dilbər Xəlilzadə bir neçə ildir ki, Goranboy Rayon Mədəniyyət Şöbəsində tarix və mədəniyyət abidələrinin mühafizi vəzifəsində çalışır. Bu dövrdə o, özünü bacarıqlı və səriştəli bir işçi kimi göstərmişdir. Dilbər həm də poeziya vurğunudur. Bəlkə də bu onun zərif qəlbini ehtizaza gətirən tale yollarındakı dolanbaclardan irəli gəlir? O, hələ gəncdir. İrəlidə onu çox ciddi sınaqlar gözləyir.*

*Bir sözlə, istəkli oxucular, ilk qələm təcrübələri olsa da Dilbərin şerlərindəki həyatiliyi, səmimiliyi görüb, duyub onları sizlərin mükaliməsinə təqdim edirik.*

**Kəniş Həsənoğlu**

## Dünyanın

*Az çəkmədim bu dünyanın qəhrini,*
*Heç görmədim bir xeyrini-bəhrini.*
*İlan təki axıdacaq zəhrini,-*
*Etibarı, ilqarı yox dünyanın.*

***

*Əğyar gəlib yolun üstə duracaq,*
*Məzlum-məzlum kəc boynunu buracaq.*
*Səni başdan lap ayağa salacaq,-*
*Etibarı, ilqarı yox dünyanın.*

***

*Mehman deyib dost qapısın döyəcək,*
*Əl uzadıb, üz-gözündən öpəcək.*
*Çörək kəsib, arxasınca söyəcək,-*
*Etibarı, ilqarı yox dünyanın.*

## Görməyəcəksən

Qəlbimin həsrəti üzəcək səni
Ayrılıq qəddini əyəcək sənin.
Günahın qarşını kəsəcək sənin,-
Sən məni bir daha görməyəcəksən.

***

Telini oxşasın bahar küləyi,
Sevmirsə neynirsən sən o ürəyi ?
Olsan də bir zaman ömür gərəyi,-
Sən məni bir daha görməyəcəksən.

***

Dilbərəm, sevgini unamamışam,
Sevib-sevilməyə doğulmamışam.
Məni sevdiyinə inanmamışam,-
Sən məni bir daha görməyəcəksən.

## Yollarımı

**Ağlayıram için-için,**
**Dərdlərimi ölçün-biçin.**
**Heç bilmirəm, axı neyçin**
**Kədər kəsib yollarımı.**

***

**Sevincim az, qəmim çoxdur,**
**Əhvalımı soran yoxdur.**
**Bir halıma yanan yoxdur,-**
**Kədər kəsib yollarımı.**

***

**Hicranından qovrulmuşam,**
**Külək kimi sovrulmuşam.**
**Yarı yolda yorulmuşam,-**
**Kədər kəsib yollarımı.**